


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 71 (24.208)

*21 aprel 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Milli-mənəvi dəyərlərimizə, İslam ənənələrinə dövlət qayğısının növbəti təzahürü

### *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Nərimanov rayonunda “Cümə” məscidinin açılışında iştirak ediblər*





Aprelin 20-də Bakının Nərimanov rayonunda dövlətimizin başçısının təşəbbüsü ilə aparılan əsaslı təmirdən və rekonstruksiyadan sonra “Cümə” məscidinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Bu gün multikultural ənənələri, tolerant mühiti, İslam dünyası daxilində həmrəyliyin möhkəmlənməsi istiqamətində atdığı tarixi addımları qlobal miqyasda maraqla qarşılanan Azərbaycanda müxtəlif dinlərin, o cümlədən İslam dinin abidələrinin qorunmasına xüsusi diqqətlə yanaşılır. Son dövrlərdə yeni məscidlərin tikilməsi və ya əsaslı təmiri də bu yanaşmanın təzahürüdür.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın müqəddəs Ramazan bayramı ərəfəsində “Cümə” məscidinin açılışında iştirak etmələri həm də rəmzi məna kəsb edir.

Qeyd edək ki, “Cümə” məscidi 1998-ci ildən fəaliyyətə başlayıb. İllər ötdükcə bina tədricən qəzalı vəziyyətə düşüb. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə bu məsciddə əsaslı təmir və yenidənqurma işlərinə başlanılıb. İşlər yüksək səviyyədə həyata keçirilib və bu ilin aprel ayında başa çatdırılıb.

Qəzalı vəziyyətdə olan iki minarə aparılan işlər çərçivəsində sökülərək yenidən tikilib, məscid binasında bərpa-gücləndirmə işləri yerinə yetirilib, dəstəmazxana binası inşa olunub, zəruri infrastruktur yaradılıb.

Eyni vaxtda 600-ə yaxın insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub.

Burada yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısının təşəbbüsü və tapşırıqlarına əsasən paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib, bərpa olunub və ya yenidən qurulub. Bu istiqamətdə görülən işlərə Heydər Əliyev Fondu da sanballı töhfələr verib.

Nərimanov rayonundakı “Cümə” məscidində aparılan əsaslı təmir və yenidənqurma işləri də ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı görülən işlərin ardıcıl xarakter aldığını göstərir.

***

Qeyd edək ki, bu gün qloballaşan dünyada etnik-dini zəmində baş verən münaqişələr, dini ekstremizm və islamofobiya, dinin bəzi siyasi ambisiyalara alət edilməsi cəhdləri, təəssüf ki, acı gerçəklikdir. Azərbaycan dövlətinin isə milli-mənəvi dəyərlərin, o cümlədən İslam ənənələrinin qorunması ilə bağlı ardıcıl siyasəti var.

Prezident İlham Əliyev “2017 – İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq” mövzusunda beynəlxalq konfransın açılış mərasimindəki nitqində bununla bağlı deyib: “Azərbaycan xalqı əsrlərboyu öz milli-mənəvi dəyərlərini yaşatmış, qorumuşdur. İslam dəyərləri isə milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir”.

2017-ci ilin “İslam Həmrəyliyi İli” elan edilməsi, ölkəmizin İslam Həmrəyliyi Oyunlarına, eyni zamanda BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumununa, Mədəniyyətlərarası Dialoq Forumları və Bakı Humanitar Forumu kimi dinlərarası, mədəniyyətlərarası dialoqla bağlı bir çox mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın həm İslam, həm də sivilizasiyalar arası dialoqla qlobal sülhə töhfəsinin ifadəsidir. Bu yanaşma, şübhəsiz ki, İslamın təməl prinsipləri ilə üst-üstə düşür.

## Prezident İlham Əliyev Ramazan bayramı ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial şəbəkə hesablarında Ramazan bayramı ilə əlaqədar paylaşım edib.

Paylaşımdakı fotonun üzərində qeyd edilib: “Ramazan bayramınız mübarək!”.

**AZƏRTAC**

## “Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğunun banisidir” mövzusunda elmi-praktik konfrans olub

“Naxçıvan” Universitetində keçirilən konfransda çıxış edən “Naxçıvan” Universitetinin rektoru, dosent Anar Kazımov müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın müdrik rəhbəri Heydər Əliyevin müasir Azərbaycan tarixindəki rolu, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu islahatlar barədə ətraflı məlumat verib. Bildirilib ki, Ulu Öndərin gərgin və məqsədyönlü fəaliyyəti nəticəsində bu gün Azərbaycan inkişaf etmiş ölkələr sırasında xüsusi yeri olan bir dövlətə çevrilib, həyata keçirilən mütərəqqi və beynəlxalq standartlara uyğun islahatlar nəticəsində qanunun aliliyinə əsaslanan sivil vətəndaş cəmiyyəti formalaşdırılıb.



“Ümummilli Lider Heydər Əliyev və hüquqi dövlət quruculuğu” mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov dahi şəxsiyyətin müstəqil dövlətimizin qurulmasında və inkişafında müstəsna xidmətlərini, onun zəngin siyasi irsini, dövlət idarəçilik təcrübəsinin əhəmiyyətini qeyd edib, müəllifi olduğu “Qanunçuluq və hüquq düşüncəsi” adlı kitabını da universitetin Elmi Kitabxanasına hədiyyə edib.

Ümumi tarix və beynəlxalq münasibətlər kafedrasının müəllimi, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin icra məmuru Yunis Xəlilov “Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının ilk Milli Konstitusiyasının memarıdır” məruzəsində dahi şəxsiyyətin misilsiz xidmətləri nəticəsində 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyanın ölkəmizdə dövlətçiliyin inkişafındakı, demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin yaradılmasındakı rolundan bəhs edib.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

## Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş dəyirmi masa keçirilib



Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş dəyirmi masa təşkil edilib.

Tədbirdən əvvəl daimi nümayəndəliyin kollektivi əvvəlcə Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiram göstərilib. Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın da məzarı ziyarət olunub, məzarüstü abidəsi önünə gül dəstələri qoyulub, əziz xatirəsi anılıb.

Sonra Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş dəyirmi masa keçirilib. Tədbir iştirakçıları Azərbaycanın ərazi bütövlüyü, işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olmuş Vətən övladlarının, həmçinin Ulu Öndərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edərək dahi liderə və bütün şəhidlərimizə dərin hörmət və ehtiramlarını bildiriblər.

Əvvəlcə “Heydər Əliyev və Azərbaycan” sənədli filmi nümayiş olunub. Daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov çıxışında Prezident cənab İlham Əliyevin 2022-ci il sentyabrın 29-da Azərbaycanda 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Sərəncamı və bununla bağlı Tədbirlər Planı barədə geniş məlumat verib. Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti, onun Azərbaycan tarixindəki rolu barədə danışıb, müstəqil dövlətimizin banisi, Azərbaycan xalqının xilaskarı olan Ümummilli Lider Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən bəhs edib, onun zəngin irsinin bütün nəsillər üçün örnək olduğunu diqqətə çatdırıb, müstəqilliyimizin xilaskarı kimi tarixə düşən böyük Heydər Əliyevin siyasi irsinin bugünkü uğurlarından bəhs edib.

Daimi nümayəndəliyin rəhbəri qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri son dərəcə böyük, çoxşaxəli və misilsizdir. Heydər Əliyevin ən böyük xidmətlərindən biri özündən sonra xalqımıza layaqətlə xidmət edəcək, Azərbaycanı ona etibar edəcək bir şəxsiyyət, Prezident cənab İlham Əliyev kimi müdrik və vətənpərvər lider yetişdirməsi olub.

Ümummilli Lider Heydər Əliyevin zamanında əsasını qoyduğu ordu quruculuğu siyasətinin Vətən müharibəsində möhtəşəm Qələbə qazanılmasındakı əhəmiyyətinə də toxunan Bəxtiyar Əsgərov Ulu Öndərin hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan Silahlı Qüvvələrinin qüdrətlənməsini hər zaman diqqət mərkəzində saxladığını vurğulayıb.

Daimi nümayəndəliyin rəhbəri müstəqil Azərbaycanın inkişafı naminə Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu uğurlu siyasətin davam etdirilməsində Prezident cənab İlham Əliyevlə yanaşı, Birinci vitse-prezident, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın da müstəsna xidmətlərindən danışıb.

Tədbirdə çıxış edənlər Ulu Öndərin siyasi fəaliyyəti, ölkəyə rəhbərliyi dövründə müəyyənləşdirdiyi inkişaf strategiyası və Azərbaycan tarixindəki müstəsna xidmətlərindən danışıblar. Diqqətə çatdırılıb ki, dahi şəxsiyyətin formalaşdırdığı və inkişaf etdirdiyi Azərbaycançılıq fəlsəfəsi milli dövlətçiliyimizin bünövrəsini möhkəmləndirib, dünya azərbaycanlılarının və türk dövlətlərinin həmrəyliyi üçün möhkəm zəmin yaradıb. Ümummilli Lider ölkəmizə rəhbərliyinin hər iki dövründə qadın hərəkatının təşəkkül tapmasını və həyata keçirilməsini dövlətçiliyin prioritet istiqaməti olaraq daim diqqətdə saxlayıb. Ulu Öndərin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyası bu gün dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilərək ölkəmizin davamlı inkişafı təmin edilib, qarşıya qoyulmuş əsas məqsəd və hədəflərə nail olunub.

**AZƏRTAC**




## Müharibə veteranları, şəhid ailələri və qazilər Heydər Əliyev Muzeyini ziyarət ediblər

Ölkəmizdə 2023-cü ilin “Heydər Əliyev İli” elan olunması ilə əlaqədar olaraq dahi şəxsiyyətin həyatı, fəaliyyəti, zəngin dövlətçilik tariximiz, bütövlükdə, Heydər Əliyev irsinin təbliği ilə bağlı Naxçıvan Muxtar Respublikasında da müntəzəm tədbirlər təşkil olunur.

Azərbaycan Respublikası Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının kollektivi, şəhid ailələri, eləcə də I və II Qarabağ müharibəsinin iştirakçıları Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Muzey ziyarətçilərinə Ümummilli Liderin zəngin dövlətçilik fəaliyyətindən bəhs edilib, ekspozisiya ilə bağlı məlumatlar diqqətə çatdırılıb. Qeyd olunub ki, dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada uşaqlıq və gənclik dövrləri, təhsil illəri, ilk əmək fəaliyyəti, 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti dövrü zəngin materiallarla nümayiş etdirilir. Buradakı eksponatlar görkəmli dövlət xadiminin ictimai-siyasi fəaliyyətini, şərəfli həyat yolunu özündə əks etdirir.

Sonra muzey əməkdaşının bələdçiliyi ilə ekspozisiya ilə yaxından tanışlıq olub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

---

## Sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətidir

*Tarix sübut edir ki, müxtəlif dövrlərdə müəyyən səbəblərdən milli dövlətçiliyini və müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən xalqlar çətin sınaq anında məsuliyyəti öz üzərinə götürmüş qətiyyətli liderlərinin sayəsində mövcudluqlarını qorumuş, çətinliklərə sinə gərmiş, milli ideya ətrafında birləşmişlər. Belə taleyüklü mərhələlərdə bir həqiqət də təsdiqini tapmışdır ki, hər bir dövlətin üzləşdiyi təhdidlərə qarşı əzmkar müqavimət göstərməsi, ilk növbədə, ona rəhbərlik edən siyasi liderin şəxsiyyətindən, idarəçilik səriştəsindən və qətiyyətindən asılıdır.*

Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi nadir şəxsiyyətlərdən biri, qüdrətli dövlət xadimi, dünya şöhrətli siyasət dahisi və əvəzedilməz Lider Heydər Əliyev də ən çətin və mürəkkəb məqamlarda xilaskarlıq missiyası ilə xalqının köməyinə çatmış, Azərbaycan tarixinin parlaq səhifələrini yazaraq ölkənin salnaməsində dərin iz qoymuş, sözün həqiqi mənasında, onu qurub yaratmışdır. Bu dahi şəxsiyyət böyük zəhməti, tükənməz enerjisi, işıqlı zəkası və dəmir iradəsi ilə daim xalqının, Vətəninin, dövlətinin xidmətində dayanmışdır.

Müasir Azərbaycan tarixinin bir çox parlaq səhifələri, heç şübhəsiz ki, Ulu Öndər Heydər Əliyevin adı ilə, onun irimiqyaslı və çoxşaxəli dövlətçilik fəaliyyəti ilə bağlıdır. Respublikaya rəhbərlik etdiyi dövrlərdə Azərbaycanın bütün sahələr üzrə inkişafında, xüsusən iqtisadiyyatın dirçəlişində, sosial vəziyyətin yaxşılaşdırılmasında, dövlət müstəqilliyinin möhkəmləndirilməsində Ümummilli Liderin xidmətləri ölçüyəgəlməzdir. Görkəmli dövlət xadimi hələ sovet hakimiyyəti illərində var qüvvəsi ilə Azərbaycanın gələcək inkişafı, tərəqqisi, xalqın həyat səviyyəsinin yaxşılaşdırılması və cəmiyyətin firavanlığı naminə yorulmaq bilmədən çalışmışdır.

Ötən əsrin 60-cı illərində Azərbaycan ictimai-siyasi həyatın bir çox sahələri üzrə müttəfiq respublikalardan geridə qalırdı. Yalnız 1969-cu ildə Heydər Əliyevin respublikaya rəhbərliyə gəlişindən sonra bu vəziyyətdən çıxış yolu kimi uzunmüddətli və məqsədyönlü sosial-iqtisadi inkişaf strategiyasının konseptual əsasları hazırlanmış və mərhələlərlə onun həyata keçirilməsinə başlanılmışdır. Nəticədə, Azərbaycan dirçəliş yoluna qədəm qoymuş, güclü sənaye potensialı yaradılmış, aqrar sektor inkişaf etməyə başlamış, energetika sistemi yenidən qurulmuş, çoxlu sayda infrastruktur və sosial obyektlər yaradılmışdır. Xüsusən karbohidrogen ehtiyatlardan səmərəli istifadə olunması Azərbaycanın hərtərəfli inkişafında mühüm rol oynamışdır. Ümumiyyətlə, neft amili Ulu Öndərin dövlətçilik fəaliyyətinin bütün mərhələlərində uzaqgörən, düşünülmüş iqtisadi və siyasi xətt olaraq daim ön planda durmuşdur. Yalnız bu dahi şəxsiyyətin rəhbərliyə gəlişindən sonra xalq öz “qara qızıl”ından bəhrələnmək hüququ əldə etmiş və ölkənin gələcək inkişafı üçün etibarlı iqtisadi zəmin yaranmışdır.

Azərbaycanda sahibkarlığın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğı sayəsində əlverişli biznes mühitinin yaradılması üçün çox yaxşı imkanlar açılmışdır. Bu gün sahibkarlığın inkişafı istiqamətində atılan addımlar, bu sahədə yaradılan şərait birbaşa olaraq Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu sahədə əldə olunan inkişaf, möhkəm təməl Ulu Öndər Heydər Əliyevin diqqəti nəticəsində yaradılmışdır.

Azərbaycanın müasir sahibkarlığının tarixinə nəzər saldıqda şahidi oluruq ki, Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra təsdiq edilmiş “Azərbaycanda sahibkarlığın inkişafı Dövlət Proqramı”nın icrası sahibkarlıq sektorunda həyata keçirilən islahatların, ölkədə fəaliyyət göstərən kiçik və orta sahibkarların fəaliyyətini genişləndirdi.

Ulu Öndərin fəaliyyətində, həmçinin sahibkarlıq fəaliyyətinə mane olan bir sıra əngəllərin və yoxlamaların aradan qaldırılması istiqamətində imzalanan fərman və sərəncamları da bu sahədə müstəsna rol oynamışdır. Ümummilli Liderin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edilmiş, 100-dən çox Fərman və Sərəncam imzalanmış, 30-a yaxın Dövlət proqramı təsdiq edilmişdir.

2002-ci il sahibkarlığın inkişafı sahəsində Ümummilli Liderimiz Heydər Əliyevin yerli və xarici iş adamları ilə keçirilmiş görüşləri ilə əlamətdar olmuşdur. Bu görüşlərin nəticəsi olaraq ölkədə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması məqsədilə müvafiq Dövlət proqramı qəbul edilmiş, bir sıra mühüm fərmanlar imzalanmış, bununla da ölkədə sahibkarlığın inkişafında yeni mərhələnin təməli qoyulmuşdur.

Yerli sahibkarlarla keçirilmiş həmin görüşün əhəmiyyətini nəzərə alaraq, cənab Prezident “Sahibkarlar Günü”nün məhz aprel ayının 25-də qeyd edilməsini qərara almışdır.

Ümummilli Lider Naxçıvan Muxtar Respublikasında cəmiyyət həyatının bütün sahələrini əhatə edən inkişafın möhkəm əsaslarının yaratmış, sonralar, ümumən, Azərbaycanın hər yerində, o cümlədən Naxçıvanda baş verən böyük yeniləşmə və inkişaf prosesləri məhz həmin zəmin üzərində ucalmışdır.

Naxçıvan Muxtar Respublikasında bütün sahələr kimi, sənayenin inkişafı üçün də ötən illər çox iş görülmüş, mühüm nailiyyətlər qazanılmışdır. Bu uğurların bünövrəsi Ümummilli Lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsi ilə qoyulmuşdur. Həmin dövrdən başlayaraq Naxçıvanda sənaye məhsulları, xüsusən duz, mineral sular, ipək xammalı, tikinti materialları, şərab, meyvə konservləri istehsalı artmağa başlamışdır. Özü də həmin məhsulların əksəriyyətinin istehsalı, əsasən, yerli xammala əsaslanırdı. Araz çayı üzərində İran ilə birgə Elektrik Stansiyası, tikiş və alt trikotaj fabrikləri, yeni mineral sudoldurma və şüşə qablar zavodları, taxıl məhsulları kombinatı, dəmir-beton məhsulları müəssisəsi məhz həmin dövrdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə tikilib işə salınmışdır. O illər, həmçinin Naxçıvan Muxtar Respublikasında Şahtaxtı daş karxanası, kərpic zavodu istifadəyə verilmiş, o cümlədən Naxçıvan Xalça kombinatı, Şərur Konserv Zavodu, ikinci dəmir-beton zavodu fəaliyyətə başlamışdır.

Ulu Öndərin sosial-iqtisadi inkişaf konsepsiyası Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilməkdədir. 2022-ci ildə ümumi daxili məhsul istehsalının 1994-cü illə müqayisədə 80,2 dəfə, sənaye məhsulunun həcminin 467,3 dəfə, kənd təsərrüfatının ümumi məhsulunun 25,8 dəfə artması görkəmli dövlət xadimi Heydər Əliyev siyasi kursunun təntənəsidir.

Aparılan məqsədyönlü dövlət siyasəti sayəsində muxtar respublikada sənaye müəssisələrinin sayı 400-ü ötmüş, 300-dən çox məhsul istehsalına nail olunmuşdur. Sənayenin inkişafına yönəlmiş mexanizmlərdən biri də sənaye məhəlləsinin yaradılmasıdır. Son dövrlər muxtar respublikada bu istiqamətdə bir sıra addımlar atılmışdır. Şərur rayonunda yaradılmış sənaye məhəlləsində bütün zəruri infrastruktur qurulmuş, burada ayaqqabı, Avropa qapıları, mebel, kağız kisə və karton tara istehsalı sahələri fəaliyyətə başlamış, istehsal gücü sutkada 60 ton yağlı toxum emalına malik olan bitki yağı istehsalı sahəsi qurulmaqdadır.

Sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 88 faizi ötmüşdür.

Naxçıvanda böyük quruculuq proqramı gerçəkləşdirilmişdir. Muxtar respublika, demək olar ki, qısa müddətdə əsaslı surətdə yenidən qurulmuşdur. Qədim tarixə malik olan Naxçıvanın əsas memarlıq üslubu saxlanılmaqla yanaşı, şəhərdə düşünülmüş şəkildə yeniləşdirilmə proqramı həyata keçirilmişdir. Minlərlə sosial-infrastruktur obyektləri – magistral və yerli əhəmiyyətli yollar, körpülər salınmış, təhsil, səhiyyə, mədəniyyət və idman obyektləri, elektrik stansiyaları tikilmişdir.

Muxtar respublikada sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına köməklik etmək, onlara maliyyə dəstəyi göstərmək və əhalinin məşğulluğunun təmin edilməsinə şərait yaratmaq məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondu yaradılmışdır. Fondun vəsaitləri sosial-iqtisadi inkişafın prioritet istiqamətləri üzrə investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilir. Güzəştli kreditlərdən daha səmərəli istifadə edilməsi məqsədilə Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin illik faiz dərəcəsi 6 faizdən 5 faizə endirilmişdir. Ümumilikdə, 2000-2022-ci illərdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 1799 layihə üzrə 183 milyon 535 min manat, o cümlədən 2022-ci ildə 141 layihə üzrə 7 milyon 184 min 600 manat həcmində güzəştli kredit verilmişdir. Həmin vəsait sənaye, xidmət, kənd təsərrüfatı təyinatlı sahələrin maliyyələşdirilməsinə yönəldilmişdir.

Sahibkarlıq sahəsində hüquqi bazanın təkmilləşdirilməsi, sahibkarların hüquqlarının müdafiəsi məqsədilə indiyədək bir çox qanunlar qəbul olunmuşdur. Sahibkarlığın inkişafına töhfə verən belə qanunlardan biri 2002-ci il 28 sentyabr tarixdə “Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında” Fərman və 2013-cü ilin 2 iyul tarixdə “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu imzalanmışdır ki, bu sənədlər əsasında dövlət qurumları ilə sahibkarlıq subyektləri arasında yaranan bir sıra ciddi problemlər tam açıqlığı ilə öz həllini tapmışdır.

Biznes sferasının tənzimlənməsi istiqamətlərindən biri də sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırılmasıdır. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 4 aprel 2023-cü il tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası ərazisində lisenziya verən orqanların siyahısı və lisenziya tələb edən fəaliyyət növlərinin sayı müəyyən olunmuşdur. Reallaşdırılan tədbirlər nəticəsində bu sahədə lisenziyanın verilməsi daha da sadələşdirilmiş, sahibkar və vətəndaş məmnunluğu yüksəlmişdir.

Sahibkarlıq sahəsində lisenziya tələb olunan fəaliyyət növlərinin əhəmiyyətli dərəcədə azaldılması, sərmayə qoyuluşunun stimullaşdırılması, satınalmalar prosedurunun tamamilə elektronlaşdırılması və vahid internet portalı vasitəsilə həyata keçirilməsi kimi tədbirlər də özəl sektorun fəaliyyətinin gücləndirilməsinə, şəffaflığın və hesabatlılığın artırılmasına, rəqəmsallaşmanın geniş vüsət almasına, rəqabət mühitinin inkişafına xidmət edir.

Muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin əlaqələrinin inkişaf etdirilməsi, istehsal olunan məhsulların ixrac imkanlarının artırılması, onların xarici ölkələrdə tanıdılmasında keçirilən biznes forumların və beynəlxalq tədbirlərin böyük rolu var. Ümumilikdə, 2002-2022-ci illər ərzində 50-dən çox ölkədə keçirilmiş 425 tədbirdə 2039 halda sahibkarlıq subyektlərinin 2184 nümayəndəsinin iştirakı təmin edilmişdir.

Ümumi iqtisadi inkişafa təsir göstərən amillərdən biri də yüksəkkeyfiyyətli, beynəlxalq standartlara cavab verən yerli istehsal məhsullarının dünya bazarlarına çıxarılması, ixrac potensialının gücləndirilməsidir. Bu gün muxtar respublikada istehsal olunan bir sıra qida məhsulları, mineral sular, daş məhsulları, tikinti materialları, tütün məmulatları, mebel məhsulları 20-dək ölkəyə ixrac olunmuşdur.







Daha bir islahat tədbiri olaraq 2016-cı ildən etibarən investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi, sərmayə qoyuluşunun stimullaşdırılması məqsədilə sahibkarlara investisiya təşviqi sənədləri verilməsidir. Bu məqsədlə 2017-2020-ci illərdə üç şirkətə ixrac əməliyyatları üzrə 119.366 manat həcmində İxrac Təşviqi Sənədi verilmiş, 2016-2022-ci illər ərzində 18 sahibkarlıq subyektinin 24 layihəsinə verilmiş İnvestisiya Təşviqi Sənədi çərçivəsində idxal edilən 77.914.089 manat dəyərində avadanlıqlara gömrük və vergi güzəştləri tətbiq edilmişdir.

Aqrar sahədə baş verən dəyişikliklərin tənzimlənməsi və idarə olunması ilə regionda yeni təsərrüfat münasibətləri şəraitində kənd təsərrüfatı sahələrinin dirçəldilməsində mühüm nailiyyətlər qazanılmışdır.

Kənd təsərrüfatı istehsalçılarının torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilməsi, motor yağları və gübrələrə görə tətbiq olunan güzəştlər, texnikaların lizinq yolu ilə verilməsi, arıçılıq və bağçılıq sahəsinə subsidiyaların verilməsi bu sahənin inkişafına öz töhfəsini vermişdir. Ötən illər ərzində süd emalı, heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq təsərrüfatları ilə yanaşı, soyuducu anbar və istixana təsərrüfatları istifadəyə verilmişdir.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının texnikaya olan tələbatının daha dolğun şəkildə ödənilməsi məqsədilə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır.

*Bütün bunlar Heydər Əliyev dövlətçilik məktəbinin, geniş mənada müstəqillik dövrü Azərbaycan dövlətçiliyinin nailiyyətləridir. Bu böyük dövlətçilik konsepsiyasının qətiyyətlə həyata keçirilməsi ölkəmizdə, eləcə də muxtar respublikamızda bütün sahələrdə inkişafdan yeniləşməyə və intibaha doğru hərəkatın başlıca hərəkətverici qüvvəsinə çevrilmişdir.*

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*23 aprel Ümumdünya Kitab və Müəllif Hüquqları Günüdür. Bu barədə qərar 1995-ci il noyabrın 15-də Parisdə UNESCO-nun Baş Konfransında qəbul edilib. Günün niyə məhz 23 aprel seçilməsi isə təsadüfi deyil. 23 aprel dünya ədəbiyyatının üç böyük nəhəngi – Uilyam Şekspir, Migel de Servantes və İnka Qarsilaso dela Veqanın vəfat etdiyi gündür. Kitaba və müəlliflərə hörmət əlaməti olaraq bu əlamətdar gün bütün dünyada 1996-cı ildən, ölkəmizdə isə 1997-ci ildən qeyd edilir. Hər il təqvimin bu günü dünya şəhərlərindən biri Ümumdünya Kitab Paytaxtı seçilir.*

# Kitab insanlar və mədəniyyətlər arasındakı mənəvi körpüdür



Azərbaycan Respublikasının Konstitusiyasının 30-cu maddəsində yazılır: *"Hər kəsin əqli mülkiyyət hüququ vardır və müəlliflik hüququ qanunla qorunur".*

Kitab bəşər mədəniyyətinin inkişafında mühüm rol oynayan ən böyük kəşflərdən biridir. Əfsanələr, əsatirlər, rəvayətlər, qəhrəmanlıq dastanları, əmək mahnıları əvvəllər şifahi formada yayılmış, sonralar isə daş, dəri və ağac üzərinə yazılaraq bu günə qədər gəlib çatmışdır. Əlifba və yazının yaranması, kağızın kəşfi, əlyazmalar, çapçılığın ixtira edilməsi, kitabxanaların yaranması kitabın inkişaf mərhələsində ən mühüm səhifələrdir. Kitabın insan həyatına daxil olması, kitabların çoxaldılması həm də müəlliflik hüququnun yaranması zərurətini meydana gətirmişdir. Orta əsrlərdə Azərbaycan şairləri öz şeirlərinin sonunda poetik adlarını işlətməklə müəlliflik hüququnun səmərəli qorunma formasını yaratmışlar.

***"Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyəti, ədəbiyyatıdır. Biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışıq. Bizim iqtisadi potensialımız kimi başqa bir sərvətimiz – intellektual potensialımız da var. Dahi insanlarımız Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar"***, – deyən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev milli sərvətimiz olan mədəniyyətimizi, ədəbiyyatımızı, kitab nəşrini, bir sözlə,



xalqımızın mədəni səviyyəsini yüksək qiymətləndirmiş, kitab nəşri və müəlliflik hüququ sahəsində böyük işlər həyata keçirilmişdir.

Ötən əsrin 70-ci illərindən başlayaraq Ulu Öndərimizin rəhbərliyi ilə Azərbaycanda mətbəə və nəşriyyatlar yenidən qurulmuş, kitab nəşri ilə əlaqədar nəşriyyatların maddi-texniki bazası yaxşılaşmış, yaradıcı insanlara hərtərəfli qayğı göstərilmişdir. Müstəqillik illərində isə Ulu Öndər Heydər Əliyev tərəfindən kitab nəşri və müəllifllik hüququ sahəsində ardıcıl tədbirlər görülmüşdür. 1996-cı ildə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", 1998-ci ildə "Kitabxana işi haqqında", 2000-ci ildə "Nəşriyyat işi haqqında", 2003-cü ildə "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası qanunlarının qəbul edilməsi ilə bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. Ölkəmizdə Müəllif Hüquqları Agentliyi yaradılmış, Azərbaycan Respublikası "Ədəbi-bədii əsərlərin qorunması haqqında" Bern Konvensiyası və "Müəllif hüquqları haqqında" Ümumdünya Konvensiyasına qoşularaq geniş beynəlxalq əməkdaşlığa başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında, "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında", "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamları, eləcə də ölkə Prezidentinin 2017-ci il 6 sentyabr tarixli "Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Fərmanı müəllif hüquqları sahəsində sistemli tədbirlərin həyata keçirilməsinə yeni imkanlar açmışdır.

Prezident cənab İlham Əliyevin "İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 20 aprel tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin və Patent və Əmtəə Nişanları Mərkəzinin birləşmə formasında yenidən təşkili yolu ilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradılmışdır. 2021-ci ilin aprel ayında dövlətimizin başçısı Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi"nin yaradılması haqqında Fərman imzalamışdır.

Bu gün Azərbaycanın tarixi, mədəniyyəti, musiqisi, xalçaları, muğamları, xalq yaradıcılığı, ədəbiyyatı, memarlığı, milli mətbəxi və geyimləri, mədəni irsi haqqında nəşr olunan kitablar, elektron daşıyıcılar zəngin elmi və mədəni potensialımızın dünyada tanıdılması, xalqımızın müəlliflik hüququnun beynəlxalq aləmdə qorunması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdir. Görülən işlərin bəhrəsi olaraq xalqımızın zəngin mədəniy-



yətinin və tarixinin ən gözəl inciləri UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. UNESCO-nun Təcili Qorunma Siyahısına salınmış "Tənzərə" və "Köçəri" yallıları bu qədim və nadir sənətin də xalqımıza məxsusluğunun bir daha dünya ictimaiyyətinə çatdırılması baxımından böyük nailiyyətdir.

Ölkəmizin digər bölgələrində olduğu kimi, xalqımıza böyük yaradıcı şəxsiyyətlər bəxş edən qədim Naxçıvanda da kitab nəşri və müəllif hüquqlarının qorunması diqqətdə saxlanılmışdır. Muxtar respublikada fəaliyyət göstərən kitabxanaların yenidən qurulması, müasir binalara köçürülməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi, elektron kitabxanaların istifadəyə verilməsi, kənd mərkəzlərində və ümumtəhsil məktəblərində zəngin kitabxana fondlarının yaradılması, nəşriyyatların müasir çap avadanlıqları və yeni bina ilə təmin olunması geniş mütaliə imkanları yaratmaqla yanaşı, həm də kitab nəşrinin sürətləndirilməsinə, müəlliflərin azad və maneəsiz fəaliyyətinə şərait yaratmışdır.

Qədim diyarımızda təhsil və elm müəssisələrində də kitabxanaların yenidən qurulması davamlı olaraq həyata keçirilir. Naxçıvan Dövlət Universitetində və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində elektron kitabxanaların istifadəyə verilməsi bunun göstəricisidir. Muxtar respublikanın paytaxtında Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio və elektron kitabxana istifadəyə verilmiş, müvafiq kateqoriyadan olan insanların mütaliəsi üçün lazımi şərait yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli Sərəncamına əsasən muxtar respublikanın kitabxanalarına yüz minlərlə elmi və bədii ədəbiyyat paylanmışdır. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün istər Naxçıvan şəhərində, istərsə də ucqar dağ kəndlərində kitabxana işi müasir tələblər səviyyəsində qurulmuşdur. Müstəqillik illərində tariximizin və milli dəyərlərimizin, eləcə də görkəmli şəxsiyyətlərimizin həyat və yaradıcılığının öyrənilməsində əvəzsiz rola malik, dəyərli elmi mənbələrə çevrilən qiymətli əsərlər işıq üzü görmüşdür.

İnsanın kamil şəxsiyyət kimi formalaşmasında, mənəvi aləminin zənginləşməsində, vətəndaşlıq tərbiyəsində, bədii təxəyyülünün, məntiqi təfəkkürünün, idraki bacarıqlarının inkişafında, hətta bir çox hallarda həyat yolunun müəyyənləşməsində kitab və mütaliənin rolu danılmazdır. Kitablar həm də dilimizi sevdirməyin ən gözəl vasitəsidir. Ona görə də kitablar bəşəriyyətin mənəvi qidası kimi bütün zamanlarda gərəkli olacaq, tərəqqi və intibaha xidmət edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Rəssam Qəhrəman Tağıyev əsərlərini muzeylərə hədiyyə edib

*Aprelin 20-də Naxçıvan Dövlət Rəsm Qalereyasında Azərbaycan Rəssamlar İttifaqının və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü rəssam Qəhrəman Tağıyevin "Duyğular və rənglər" adlı fərdi yaradıcılıq sərgisi açılıb.*



Mədəniyyət və incəsənət nümayəndələrinin, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin və rəssamın ailə üzvlərinin iştirak etdiyi sərginin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natavan Qədimova Azərbaycan mədəniyyətinin bütün sahələri kimi rəngkarlığın, rəssamlıq məktəbinin tərəqqisinin



də bu il 100 illiyini qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib, xalqın müdrik oğlunun təşəbbüsü ilə yaradılan Naxçıvan Dövlət Rəsm Qalereyasının, Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatının muxtar respublikada rəssamlığın inkişafına, gənc rəssamların yetişib, püxtələşməsinə təsirindən danışıb.

Naxçıvan rəssamlarının qiymətli sənət inciləri yaratmaqla mədəniyyətimizin inkişafına öz töhfələrini verdiyini bildirən Natavan Qədimova fərdi sərgisi keçirilən Qəhrəman Tağıyevin həyatı və yaradıcılığı barədə məlumat verib. Qeyd olunub ki, öz palitrasını yaradaraq individual bədii həll yolunu cızan, təkrarolunmaz sənət əsərləri ərsəyə gətirən Qəhrəman Tağıyev bu günə qədər bir çox festival və müsabiqələrin qalibi olub, əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunub. Mədəniyyət naziri Qəhrəman Tağıyevi fərdi sərgisi münasibətilə təbrik edib, ənənəni davam etdirərək əsərlərini muzeylərə hədiyyə etdiyi üçün təşəkkürünü bildirib.

Sonra Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı, Milli Məclisin Mədəniyyət Komitəsinin üzvü Ülviyyə Həmzəyeva Qəhrəman Tağıyevin yaradıcılığının janr baxımından rəngarəng olduğundan bəhs edib. Fırça ustasının realist, müasir üslubda işlənmiş portret, kompozisiya, natürmort və mənzərələrində mədəni irsimizin, milli adət-ənənələrimizin, Naxçıvanın zəngin təbiətinin, möhtəşəm tarixi abidələrinin öz əksini tapdığını vurğulayıb.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov, rəssamın sənət dostları – Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqov, Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru Hökümə Məmmədli Qəhrəman Tağıyevin yaradıcılığının özünəməxsus xüsusiyyətləri barədə fikirlərini bölüşüb, xatirələrini danışıblar.

Sonda çıxış edən Qəhrəman Tağıyev sərginin təşkilinə, əməyinə verilən dəyərə görə minnətdarlıq edib, əsərlərinin muzeylərdə yer alacağından məmnunluq hissi keçirdiyini bildirib. Rəssam sərgidə nümayiş etdirilən 32 rəsm əsərindən 10-nu Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan muzeylərə hədiyyə edib.

Tədbirin sonunda sərgiyə baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# İngilisdilli müəllimlərə Beynəlxalq TEFL Təlim İnstitutunun sertifikatı təqdim olunub



Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsində ingilisdilli müəllimlər üçün təşkil edilən beynəlxalq müəllimlik sertifikasiya kursu uğurla başa çatıb. Kursun sonunda müəllimlər beynəlxalq sertifikat əldə ediblər. Sertifikatları təqdim etmək üçün Beynəlxalq TEFL Təlim İnstitutunun Azərbaycan üzrə ölkə meneceri Afar İbrahimov Naxçıvan Dövlət Universitetində olub.

Xarici dillər fakültəsində keçirilən görüşdə universitetin rektoru, dosent Elbrus İsayev çıxış edərək bu cür təlimlərin ali təhsil ocağında ingilis dili üzrə bacarıqların möhkəmlənməsinə verəcəyi töhfələri diqqətə çatdırıb.

Qeyd edək ki, 3 gün davam edən təlimi Beynəlxalq TEFL Təlim İnstitutunun Azərbaycan üzrə ölkə meneceri Afar İbrahimov keçib. Həmçinin ABŞ-ın TEFL Təlim İnstitutunun akademik direktoru, professor Gisela Kornejanın onlayn təlimi dinlənilib.

Məlumat üçün onu da bildirək ki, koordinatoru İngilis dili və tərcümə kafedrasının baş müəllimi Aidə Cəlilzadə olan təlimdə universitetin ingilis dili müəllimləri başda olmaqla qeyri-ixtisaslar üzrə ingilis dilində dərs deyən, ümumilikdə, 50 müəllim iştirak edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# "Qız övladlarımızı gələcəyin Azərbaycan qadını kimi böyüdək" mövzusunda maarifləndirici tədbir keçirilib

*Babək rayonunun Nehrəm qəsəbəsində "Qız övladlarımızı gələcəyin Azərbaycan qadını kimi böyüdək" mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbiri Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səbinə Abbasova açaraq tədbirin əhəmiyyətindən danışmışdır.*



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova çıxış edərək ölkəmizdə həyata keçirilən dövlət ailə, qadın və uşaq siyasətindən bəhs etmiş, ailə dəyərləri və ailədə ailə dəyərlərinin yaşadılmasının əhəmiyyəti haqqında tədbir iştirakçılarına məlumat vermişdir.

Sonra komitənin Ailə, qadın problemləri və gender məsələləri şöbəsinin aparıcı məsləhətçisi Zərnigar Orucəliyeva slayd vasitəsilə çıxış etmişdir. O, ailədə valideyn övlad münasibətləri, bəzi ailələrdə qız övladlarına ayrı-seçkiliyin qoyulması, onların təhsilinin və milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin təşkil olunması, qızların erkən nikahdan qorunması, sosial şəbəkələrin ailələrə və uşaqlara təsirləri haqqında tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılmış, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Ramazan xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsidir

***İslamın müqəddəs mərasimləri arasında Ramazan bayramı mühüm yer tutur. Mərhəmətli qəlblərin, duyğulu könüllərin, Ulu Tanrının dərgahına səmimi hisslərlə, sonsuz arzularla əl açıb, dualar edənlərin əziz bayramıdır Ramazan. Ramazan ayı rəhmət, bərəkət və sevgi ayıdır. Bu ay insanlar arasında birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin, ilahi hikmətə bağlılığın təntənəsini nümayiş etdirir. Orucluğun başa çatdığı gün "Ramazan bayramı" kimi qeyd olunur. Həmin gün bütün müsəlmanlar əsl bayram ab-havasında olur, bir-birlərini xoş arzularla təbrik edir, küsülülər barışırlar.***

Mənbələrdə bu bayramın tarixi müsəlman təqvimi ilə hicrətin ikinci ilindən başlayır. Ramazan orucu ilk dəfə həmin il fərz qılınmış, bu ayı oruc tutan möminlər sonrakı ayın üç gününü bayram kimi qeyd etmişlər. Bir ay boyunca oruc tutmaq hər bir müsəlman üçün vacib olduğu kimi, Ramazan bayramında da imkanlıların fitrə vermələri vacibdir. "Bəqərə" surəsinin 183-cü ayəsində deyilir: *"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə fərz buyurulduğu kimi, sizə də fərz buyuruldu ki, bunun vasitəsilə pis əməllərdən çəkinəsiniz! Oruc tutmaq sayı müəyyən olan (bir ay) günlərdir. Bu günlərdə sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tuta bilməyənlər isə hər günün əvəzində bir yoxsulu doyduracaq qədər fidyə verməlidirlər. Kim fidyə miqdarını artırarsa, bu onun üçün daha xeyirlidir. Bilsəniz, oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!"*

Bu ayənin nazil olmasından sonra müsəlmanlardan əksəriyyəti oruc tutur, tuta bilməyənlər isə yoxsullara yemək payı verirdi. Sonradan nazil olan ayə "sayı müəyyən olan" ifadəsini dəqiqləşdirdi. Bu günlərin ramazan ayı olması "Bəqərə" surəsinin 185-ci ayəsində məlum oldu: *"İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və haqqı batildən ayıran Quran Ramazan ayında nazil edilmişdir. Ramazan ayına yetişən şəxslər bu ayı oruc tutmalıdırlar, xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə ona təzim və şükür edəsiniz"*.

Ramazan bayramının möminlər arasında ayrı bir yeri var. Çünki Ramazan bayramı hər gün tutulan orucun iftar vaxtındakı sevinci kimi biraylıq orucun cəmi sevincini ifadə edər. Bir ay kimi uzun müddətdə, xüsusilə də Ramazan yay mövsümündə rast gəlindiyi isti günlərdə oruc tutan möminlər bir növ səbir imtahanı verərək mənəvi məsuliyyətdən qurtulmaq imkanı qazanırlar. İslam dininə görə, oruc tutanlar axirətdə və dünyada Allahın sevgisini qazanırlar. Bir sözlə, Ramazan ayı Allahı dərk etmək, ruhən təmizlənmə və Uca Yaradana yaxınlaşma ayıdır. On bir ayın sultanı olan Ramazanda müsəlmanlara həmrəyliklərini nümayiş etdimək üçün bir fürsət verilir. İnsanlara doğru yol göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və haqqı batildən ayıran müqəddəs kitabımız "Qurani-Kərim"in Ramazan ayının gecələrinin birində nazil olması ürəyimizdəki Allah sevgisini daha da artırır. Həmin gecə "Qədr" və ya "Əhya" gecəsi adlanır. "Qurani-Kərim"də *"bu gecə ilə bağlı min aydan daha xeyirlidir"* deyilir. Min ayı ilə çevirdikdə isə 83 ilə bərabər olur. Yəni bir insan ömrü qədər savabı bir gecədə qazanmaq imkanı verib bizə bu ay. Müqəddəs kitabın "Qədr" surəsində qədr gecəsi haqqında belə deyilir: *"Biz bu gecə, həqiqətən, qüdrət, əzəmət hədiyyə etmişik, bu gecə min aydan da qüdrətlidir, mələklər aşağı enərək Allahın əmrini gözləyirlər, bu gecə şəfəqin doğmasına qədər aləmdir, sübhdür"*. Orucluğun başa çatdığı gün "fitr bayramı" adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarətə gedir, ruhlarına dualar oxuyurlar. Bir ay boyunca oruc tutmaq hər bir müsəlman üçün fərz olunduğu kimi, Ramazan bayramında da fitrə vermək vacibdir. Peyğəmbərimz Məhəmməd Salavatullahın hədislərindən birində deyilir ki, Allah bəndəsindən tələb olunan sədəqə verilməyənədək Ramazan ayında tutulmuş oruc yerlə göy arasında qalır.



Ramazan bütün müsəlmanlar üçün əzizdir, müqəddəsdir. Bu bayramı İslam dininə qəlbən bağlı olan Azərbaycan xalqı neçə əsrlərdir ki, yüksək inam və ruh yüksəkliyi ilə qeyd edir. Lakin, təəssüflər olsun ki, sovet hakimiyyəti dövründə başqa ibadətlər kimi oruc tutmaq da qadağan idi. Xalqımız, demək olar ki, bu bayramı gizli şəkildə qeyd edirdi. Lakin müstəqilliyimiz bərpa edildikdən sonra insanların vicdan azadlığı bərqərar olundu, ibadətlərə münasibət dəyişildi. Və Ramazan bayramı ölkəmizdə Milli Məclisin "Azərbaycan Respublikası bayramları haqqında" Qanununa əsasən dövlət səviyyəsində keçirilməyə başlandı. Tarixboyu öz mənəvi dəyərlərini uca tutmuş Azərbaycan xalqı artıq uzun illərdir ki, dünya müsəlmanlarının mübarək Ramazan bayramını könül xoşluğu ilə qeyd edir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə Ramazan bayramı dövlət səviyyəsində qeyd olunmağa başlanılıb. ***"Ramazan ayı cəmiyyətimizdə həmrəyliyin, dini-mənəvi birliyin möhkəmləndirilməsi işinə xidmət edən, hər bir müsəlmanın, adət-ənənələrimizə riayət edən hər bir insanın qəlbində olan bayramdır. Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır"***, – deyən Ulu Öndərimiz xalqımıza Ramazan bayramının böyük coşqu və sevinclə qeyd olunması kimi müqəddəs bir ənənəni miras qoyub. Bu ənənə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, Azərbaycanda din-dövlət münasibətləri çox yüksək səviyyədə inkişaf edir. Bu gün Azərbaycan dünyanın ən tolerant ölkəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə mənəvi dəyərlərin qorunmasına xüsusi diqqət göstərildiyini bildirərək deyib: ***"Azərbaycan müasir dövlətdir, dünyəvi dövlətdir. Eyni zamanda öz milli və dini ənənələrinə sadiq olan dövlətdir. İslam dəyərləri bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir və müqəddəs Ramazan ayı bütün dövrlərdə Azərbaycan xalqının qəlbində yaşamışdır... Azərbaycan o ölkədir ki, burada bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bu bizim böyük sərvətimizdir".***

Ölkə Prezidenti cənab İlham Əliyevin bu bayrama yüksək səviyyədə önəm verməsinin nəticəsidir ki, hər il keçirilən Ramazan bayramında müsəlmanlara təbrik məktubu ünvanlayır. Bu il də Ramazan bayramı ərəfəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ramazan bayramı münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrikdə deyilir: ***"...Bəşər övladını əxlaqi paklığa, humanizmə, birlik və bərabərliyə dəvət edən, insanların ruhunu və mənəviyyatını saflaşdıran mübarək Ramazan ayında müsəlmanlar Uca Yaradan qarşısında öz borcunu ləyaqətlə yerinə yetirmək fürsəti əldə edir, mənəvi kamilliyin və savab əməllərin sevincini yaşayırlar. İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən olan Azərbaycanda Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur.***

***Əziz bacı və qardaşlarım! Cəmiyyətimizdə vəhdəti və həmrəyliyi daha da gücləndirən, xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən on bir ayın sultanı Ramazan ayı başa çatır. Bu mübarək bayram münasibətilə bir daha hər birinizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram. Allah orucunuzu, dua və niyyətlərinizi qəbul etsin. Ramazan bayramınız mübarək olsun!"***

Ramazan bayramı, həmçinin insanların Vətən, torpaq, dövlətçilik kimi müqəddəs amallar ətrafında daha sıx birləşməsinə xidmət edir. Məhz bu birlik, həmrəylik dövlətimizin daha da güclənməsini, düşmən tapdağındakı torpaqlarımızın işğaldan azad olunmasını təmin etdi. Təəssüflə qeyd etməliyik ki, işğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə edilmişdir. Ölkə başçısı cənab İlham Əliyevin bu ərazilərdə olması, həmin obyektlərin yenidən qurulması ilə bağlı tapşırıqları hər birimizi ürəkdən sevindirir. Bu, ölkəmizdə həm dini dəyərlərimizə, həm də hər bir müsəlmana göstərilən ən böyük qayğıdır.

Naxçıvan Muxtar Respublikasında da milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə xüsusi diqqət yetirilir, iftar süfrələri təşkil edilir, ehtiyacı olanlara yardım payları verilir, yeni məscidlər tikilir, mövcud olanlar müasir standartlar əsasında təmir və ya bərpa edilir, müqəddəs yerlərə ziyarətlər təşkil olunur. Bir sözlə, müqəddəs bayramlarımız ən yüksək səviyyədə qeyd edilir. Bu sahədə görülən işlərin nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilib.

*Bu əziz bayramı biz artıq coşğuyla, təntənə ilə qeyd edirik. Çünki xalqımız üçün bu Ramazan arzulara qanad açdıran, ürəkləri riqqətə gətirən, qəlblərə sevinc, ümid bəxş edən müqəddəs bayramdır. Bu bayram minarələrdəki işıqlardan məscidlərdəki çilçıraqlara, insanların çöhrələrindəki duruluqdan könüllərdəki aydınlıqlara qədər hər yeri özünün nuruna bürüyür, könüllərimizi xoş bir meh ilə oxşayır. Səmimi duyğularla oruc tutan bütün müsəlmanları bu müqəddəs Ramazan bayramı münasibətilə təbrik edir, dövlətimizə güc, qüdrət, ölkəmizə əmin-amanlıq, xalqımıza xeyir, bərəkət və bolluq arzulayırıq. Dualarınızın qəbul olması, arzularınızın gerçəkləşməsi diləyilə, Ramazan bayramınız mübarək!*

**Gülcamal TAHİROVA**

## Naxçıvan Muxtar Respublikasında vergi yoxlamalarının sayı 10 dəfə azaldılıb




Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti vergi inzibatçılığının təkmilləşdirilməsi prosesini davam etdirir. Bu, vergiödəyicilərinə xidmətin keyfiyyətində və vergi ödəmələrinin artımında öz əksini tapır.

2023-cü ilin birinci rübündə muxtar respublikada bütün vergilərin, təxminən, 81 faizi könüllü ödənilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə vergilərin könüllü bəyan edilməsində 4,2 dəfə, könüllü ödənilməsində isə 1,5 dəfə artım müşahidə olunub. 2022-ci ilin yanvar-mart aylarına nisbətən bu ilin birinci rübü ərzində, ümumilikdə, vergi yoxlamalarının sayı 10 dəfə azaldılıb, səyyar vergi yoxlaması isə təyin edilməyib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Ətraf mühitin mühafizəsi gələcəyə qayğıdır

*Beynəlxalq Yer Gününün keçirilmə ənənələri XIX əsrin ikinci yarısına təsadüf edir. Belə ki, o dövrdə Amerika Birləşmiş Ştatlarının Nebraska ştatının sakini Corc Morton yaşıllaşdırma gününün keçirilməsini təklif edib və 1882-ci il 22 aprel tarixi Nebraska ştatında "Ağac günü" elan olunaraq bayram günü kimi qeyd edilməyə başlanıb.*



1970-ci ildən isə ABŞ-da ekoloji fəallardan olan senator Geylord Nelsonun təklifinə əsasən ekoloji problemlərin həllinə, ətraf mühitin mühafizəsinə diqqəti artırmaq məqsədilə həmin günün adı dəyişdirilərək "Yer günü" adlandırılıb.

1990-cı ildən başlayaraq Yer Gününün əsas mövzusu təbii mühiti ilkin formada qoruyan Milli parklara həsr edilib. Məqsəd xüsusi mühafizə olunan təbiət ərazilərində mövcud olan problemlərə, həmin problemlərin həll edilməsi üçün real praktiki və maliyyə yardımının göstərilməsinə ictimaiyyətin diqqətini cəlb etməkdir.

Tədricən bu bayram beynəlxalq xarakter alıb, hazırkı dövrdə 190-dan çox ölkədə, o cümlədən Azərbaycanda və Naxçıvan Muxtar Respublikasında qeyd olunur. Muxtar respublikamızda təbiəti mühafizə sahəsində görülən işlər, bu sahəyə göstərilən dövlət qayğısı hər birimizdən təbiətə, torpağa qayğı və sevgi ilə yanaşmağı tələb edir. Naxçıvan şəhərində və bölgələrdə yaşıllıqların artırılması, ərazilərin məişət tullantılarından təmizlənməsi, regional ekoloji problemlərin həllində nümunə sayıla biləcək tədbirlərdir, həmçinin muxtar respublikamıza gələn turistlərin muxtar respublikanın təbiətinin füsunkarlığına şahid olmalarına və ona qayğıkeş münasibət göstərmələrinə səbəb olur.

Beynəlxalq Yer Günü ərəfəsində insanlar müxtəlif ekoloji tədbirlərdə iştirak etməklə ağaclar əkir, yaşıllıqlara qulluq edir, yaşadıqları əraziləri müxtəlif tullantılardan təmizləyir. Ətraf mühitin sağlamlaşdırılması üçün kütləvi aksiyalar keçirilməsi ictimaiyyətin diqqətini ətraf mühitin mühafizəsi sahəsinə yönəldir.

22 aprel – Beynəlxalq Yer Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq hər il olduğu kimi, bu il də müxtəlif tədbirlər həyata keçirilir, ətraf mühitin mühafizəsi sahəsində ictimaiyyət arasında təbliğat işləri aparılır.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Babək rayonunun Nehrəm kənd sakini Fətəliyev Əli Əsgər oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 289